**Mərziyyə Nəcəfova**

*filologiya elmləri doktoru*

## Vətənə çevrilib Vətən olanlar ...

Azərbaycanın ölməz şairi Məmməd Araz 90-cı illərdə yazırdı: ”Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim”... Vətənə oğul olmaq, hələ dörd il əvvəl Aprel hadisələrində qəhrəmanlıq göstərib, ”Polad zirvəsi” qazanmaq ona qismət olmuşdu. 2016 ci il aprel hadisələrindən döyüşçü və əsgərlərinin, hərbi heyətin sevgisini qazanan Azərbaycan oğlu Aprel hadisələrindən sonra dövlətimiz tərəfindən fəxri fərmanlara, adlara laiq görülmüşdü. Heç vaxt şan-şöhrət ardınca qaçmayan, dünya malında gözü olmayan, hətta ona verilən evi şəhid ailəsinə bağışlayan Polad Haşımov şərəf və ləyaqəti ilə, ali insani keyfiyyəti ilə ürəklərdə məskən salmdı.




1975-ci ildə Sumqayıt şəhərində dünyaya göz açan polad ürəkli, polad biləkli, polad iradəli, polad cəsarətli generalımız Polad Həşimov (əslən Qəbələ bölgəsindəndir) orta məktəb illərində əlaçı olmuş, sinif nümayəndəsi kimi fərqlənmişdir. Azərbaycanda hərbi təhsil alsa da, 1992- ci ildə Türkiyədə hərbi təhsilini davam etdirmiş qayıdıb gələndən sonra torpaqlarımız uğrunda döyüşə atılmışdır. Ən çətin, ağır bolgələrdə hərbi qulluqda olmuşdu. Yolu Murovdağ bölgəsindən keçmiş, gənclik illəri səngərlərdən, döyüşlərdən güc almış, müdrükləşmişdi. Əslində bunları xatırlatmağa heç ehtiyac belə yoxdur…

Əgər bu gün Qarabağ döyüşlərində, torpaqlarımız uğrunda gedən müharibədə bir general öndə gedib, canını əsgərlərinə, döyüşçülərinə, özü demiş uşaqlarına sipər etmişdirsə demək bu oğulu tərif etməyə heç ehtiyac yoxdur. Sadəcə 12-14 iyul Tovuz bölgəsində bir Polad ürəkli general torpaqlarımızın azadlığı yolunda şəhid oldu… Təfəkkürümüzdə adətən savaşlarda arxa cəbhədə oturub mübarizəni izləyən, əsgərin, döyüşçünün arxasında onu qoruyan, irəli əmri verən bir general obrazı vardı. Bu gün Polad Həşımov öz qəhrəmanlığı, cəsarəti və sədaqəti ilə düşüncəmizdə olan çox şeyləri alt-üst etdi, dəyişdirdi. Komandır o vaxd qələbə qazana bilir ki, əsgərinə qardaş, dost olsun. Bu gün düşünürəm ki, Vətənə oğul deyil, başdan ayağa Vətən olan general bu xalqa çox şey qazandırdı. Əvvəla, bir hərbiçinin dövləti, varı, ailəsi, hər şeyi Vətəndir ifadəsini təsdiq etdi. İkincisi bəzi üzdəniraq komandirlərə valideyinlərin ona etibar etdiyi övladlara “Mənim uşaqlarım” deyə bilmək və onlara ata, qardaş, sirdaş olmağı öyrətdi. Üçüncüsü, Şəhid başımızın tacıdır ifadəsini sözdə deyil, əməldə yaşatmağı öyrətdi, ona dövlət tərəfindən verilən evi şəhid ailəsinə verməklə... Və ən əsas generalın balaları bildiyi əsgər və döyüşçülərinə canını sipər etməyi öyrəti bizlərə. Əslində bunları saymaqla bitmir. Günlərdir, social şəbəkələrdə, yazı və şeirlərdə görə bildiyimiz sözün həqiqi mənasında böyük, bölünməz bir Vətən görürük.Və generalımızın Vətən oğlu deyimindən, müraciətindən daha da bütövləşən, Vətənə çevrilən simasını görürük. Bu simanın, bu varlığın təsdiqlənməsi həm bir generalın şəhidlik zirvəsinə ucalması, həm də əsgər və döyüşçülərinin

xatirəsində əsl qəhrəman kimi iz qoymasından irəli gəlir. Qoy general Polad Həşımovun əməllərini bu gün cəbhələrdə davam etdirən hərbçilərimizə bu da bir xatirə payı olsun.

Mən general Polad Həşımovun əsgəri olmuş oğlum Samirin söylədiklərindən tanıdım, ona minnətdar oldum. Onu sağlığında görmək nəsibim olmadı. Bir Ana kimi teşekkür edə, əllərini sıxa bilmədim. Müharibə görmüşdüm, əsgərliyin, döyüşün nə olduğunu gözəl bilirdim. Ölümün gözünə dik baxan əsgərlərimizi savaşa yola salıb, geriyə dönmədiklərini də görmüşdüm. Və müharibənin nə demək olduğun dəqiq bildiyim üçün də nigaran idim. Oğlum isə general Poladın əsgəri olduğu üçün qürurlanırdı. Hər telefonla danışanda ”Ana, narahat olma, məni və əsgərlərimizi burda ata kimi qoruyan komandirimiz var” deyirdi. Onun haqqında soruşub maraqlanırdım,” bəlkə oğlum mən rahat olum deyə bu qədər komandirindən razılıq edir” deyə düşünürdüm. Hər yandan general haqqında gözəl fikirlər eşidirdim. Bir dəfə oğlum on günlük məzunuyyətə gəlmişdi. Bu on gün ərzində elə gün olmadı kimi komandirindən söz salıb, onun əsgərlərə olan gözəl münasibətindən bəhs etməsin. Oğlumun xatirəsindən bir isə Polad Haşımovun səmimi, gözəl, humanist olması il yanaşı onun müdrük, ağıllı və uzaqgörən olması ilə yaddaşıma həkk oldu. Onunla bird aha qürur duyub, rahatladım. Oğlumun dedikləri;

“ Komandirim Polad Haşımovun əsgərlərlə özünəməxsus davranışını görür və bu barədə özündən soruşmaq istəsəm də ehtiyat edirdim. Bir sual mənə rahatlıq vermirdi. Komandir nə vaxd otağından çıxıb ərazini gəzirdisə, başını qaldırıb bir əsgərə baxmazdı. Başıaşağı düşüncəli gəzərdi. Bir müddət keçdi, artıq isti münasibətimiz yarandı. Bir gün mən də ürəklənib niyə başıaşağı gəzdiyini soruşdum. Cavabında: “İstəmirəm ətrafda hansısa əsgərlərin bir yanlışlıqını görüb onu danlamaq məcburiyyətində qalım. Ona görə başıaşağı gəzirəm ki, qoy əsgər məni görüb öz səhvini özü düzəltsin. Mənim təccübümü görüb və heç vaxt unuda bilməyəcəyim zarafatyana baxışlarla baxıb “get Bayramlı, get dincəl, sən deyəsən çox yorulmusan ” dedi…

Əsgərlərin komandir haqqında xatirələri isə yüzlərcədi. Bir əsgərin xatirəsi isə bizləri göz yaşına boğdu. Nicat Haşımzadənin komandiri haqqında xatirəsindən bəzi məqamı diqqətə çattdırram.

“Bir əsgər yoldaşımız ata olmuşdu. Bu hadisə Polad Haşımova tabor komandiri tərəfindən məruzə edilmişdi. Komandir çağırıb deyir: “qüsursuz xidmətinə görə növbədən kənar 10 günlük məzuniyyət verilir sən.

- Əsgər, pulun varmı?

- Bəli, cənab polkovnik.

- Düzünü de, əsgər yoldaşların kömək edib hə?

- Bəli, cənab polkovnik.

- O pulu qaytar əsgər, yoldaşlarına.

- Aşağıda səni gözləyən maşın var.

Taksi əsgəri düz evinə aparır. Sürücü əsgərə konvert verir. Komandir tapşırdı ki, ancaq evdə açsın.

Evdə zərf açılır, kağızda yazılıb:

Təbrik edirəm, əsgər, ata olmusan.

Və içində 170 manat pul….

Bu gün şəhid generalımızın xalqımıza, millətimizə qoyub getdiyi bu xatirələrdə böyük şəxsiyyətin dəyərli mirası var.

Dünən generalımızın anasının oğlu haqqında səmimi söhbətləri məndə tam dolğun bir fikir yaratdı. Qəhrəmanlarımızı dünyaya gətirən analar bir mələkdir. Hünərləri, qeyrətləri sözə, şeirə, nəğməyə, dastana sığmayan şəxsiyyətlərdirlər. General oğlunun məzarı başında vüqarla, təmkinlə dayanan, yumruğunu əllərində sıxıb, Vətənə dönən şəhidi qarşısında ona laiq davranan – ANA ! Qüdrətinə, cəsarətinə, hünərinə alqış! Vətənimizin Həcər qeyrətli qadını fəxrimiz Polad Həşimovun anası, ANA!

(General Polad Haşımovun əziz xatirəsinə)

Düşünürəm ki, əməlləri ilə xalqın ürəyində yuva salan, millətinin övladlarının sağ qalması üçün sinəsini sipər edən, Vətəninə dayaq olan, Vətənə çevrilib Vətən olan generalı varsa Vətən elə Vətəndir…

Bir şəhidə məkanın cənnət olsun deməzlər. Şəhidin məkanı deməsən də cənnətdir, amma ruhunun şad olmasını daha çox istəyirik. Vətənimizin, şəhidlərimizin də ruhu o zaman şad olacaq ki, torpaqlarımız azad olacaq… Arzularımız çin olsun generalım! Vətən adın mübarək Polad ürəkli, polad biləkli, polad cəsarətli ŞƏHİDİM, GENERAL POLAD HƏŞİMOV !

*31.10.2020...https://literature.az/?lang=aze&page=185&newsId=116188*